DOI:10.30546/gdu.5.2025

UOT:37.

# KOQNİTOLOGİYA İNSANLARIN KOQNİTİV FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİNİN QAVRANILMASINI ÖYRƏNƏN ELM KİMİ

***dosent Yusifova Tünzalə Vəli qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı***
**veliqizi@mail.ru**

***Xülasə:*** *Məqalədə koqnitologiyanın müstəqil elm sahəsi təşəkkül tapması və müstəqil metodoloji baza kimi formalaşması prinsipləri təhlil edilmişdir. Bu məqsədlə məqalədə koqnitologiyanın yaranmasını şərtləndirən səbəblər və əsas nəzəri mənbələr təhlil edilmişdir. Məqalədə dilçilik və digər elmlər sahəsində keyfiyyət dəyişiklikləri kontekstində intensiv inkişaf edən koqnitiv yönümlü fənlərarası tədqiqatın yeni sahəsi - koqnitivistikanın strukturu araşdırılır. Məqalədə koqnitologiya koqnitiv elmlərinin inteqrasiyası və idrak prosesi və koqnitiv təcrübələri haqqında biliklərin təşkilinin öyrənilməsinin paradiqmal modeli kimi nəzərdən keçirilir. Müəllif həm də koqnitiv elmin əsas paradiqmal xüsusiyyətlərinin təsvirini verir. Məqalədə koqnitologiya bilik və idrak, insanların dünyanı qavrayışının nəticələri və məlumatların düşünülmüş və sistemləşdirilmiş tərzdə toplanması, şüurda müəyyən şəkildə reprezentasiya olunmuş, mental və ya koqnitiv proseslərin əsasını təşkil edən predmet-idrak fəaliyyəti haqqında elm kimi izah edilmişdir.*

**Açar sözlər**: koqnitivistika, koqnitologiya, paradiqm, antroposentrizm, bilik, koqnitiv psixologiya, freym, informasiya

**Key words:** cognitivism, cognitology, paradigm, anthropocentrism, knowledge, cognitive psychology, frame, information

**Ключевые слова**: когнитивистика, когнитология, парадигма, антропоцентризм, знание, когнитивная психология, фрейм, информация

XX əsrdə dilçiliyin ziddiyyətli, çoxvektorlu inkişafı əsrin sonlarında dilin öyrənilməsində sistemlilik və antroposentrizm ideyasının prioritet mövqeyinin ümumi şəkildə tanınmasına və bununla əlaqədar olaraq bütün dil sahələri və kateqoriyalarında özünü göstərən insan fəaliyyətinin izlərinin axtarışına gətirib çıxardı. Bu, həm tədqiq olunan materialın, həm dəə ona yanaşmaların müxtəlifliyi və fərqli təsvir üsullarından istifadədə özünü göstərirdi.

Müasir dilçilikdə antroposentrik paradiqmin bərqərar olması ilə əlaqədar tədqiqatçıların əsas diqqəti dil və insan təfəkkürünün qarşılıqlı əlaqəsi və asılılığının, yeni şeylərin öyrənilməsi proseslərində dilin rolunun, eləcə də insanın dünya haqqında biliklərinin formalaşması və inkişafının öyrənilməsinə yönəlmişdir. “Dildə insan” probleminə dönüş XX-XXI əsrlər dilçiliyində əsas istiqaməti, dil işarələri vasitəsi ilə məlumatın kodlaşdırılması, mənimsənilməsi, işlənib hazırlanması və transformasiya xüsusiyyətlərini öyrənən koqnitiv dilçiliyin yaranmasına səbəb oldu [1].

Ötən əsrin sonlarında koqnitiv elmin yaranması və koqnitiv istiqamətin yayılması koqnitiv dilçiliyin inkişafında əlamətdar hadisə olmuşdur. Yeniliyinə baxmayaraq, koqnitiv elm zəngin tarixə malikdir. İnsan intellekti, təfəkkür qanunları, bilik mənbələri və onun əldə olunması prosesləri çoxdan məntiq, fəlsəfə, fiziologiya və psixologiya elmlərində öyrənilməsinə cəhdlərin olmasına baxmayaraq, koqnitiv elm çərçivəsində köhnə suallar müasir elmdə yeni elmi biliyin paradiqmlərinin yaranması ilə əlaqədar olaraq yeni mahiyyət qazanaraq inkişaf edir, tamamlanır, şərh olunur və yenidən düşünülür.

Müasir tədqiqatçılar ən mürəkkəb və sirli təbiət hadisələrindən birinin - insan şüuru və onun əsasında duran mexanizmlərin təbiətini və təfəkkür və xarici aləmi dərketmə

DOI:10.30546/gdu.5.2025

xüsusiyyətlərini izah etməyə çalışırlar. Səylərini cəmləşdirmək üçün müxtəlif istiqamətlər və elm sahələrinin alimləri inteqrasiya olunmuş koqnitiv elm çərçivəsində birləşməyə çalışırlar [2]. Son onilliklər ərzində adi dil daşıyıcısının dünyanı necə dərk və təsnif etdiyini, bütün həyat təcrübəsini dildə necə istifadə etdiyini və bilikləri necə topladığını izah etməyə çalışan bir çox model yaradılmışdır [3]. Bu problemlərin həlli yollarının axtarışında tez-tez artıq məlum olan modellərdən, məsələn, freym, ssenari, prototip, koqnitiv metafor və s. nəzəriyyələrdən istifadə edilir və işlənir [4].

Koqnitiv istiqamətin mühüm xüsusiyyəti, onun tərəfdarlarının qeyd etdiyi kimi, "diqqətin obyektdən subyektə köklü keçididir, yəni nitqin yaranması və qavranılması subyektin onun malik olduğu biliklər əsasında həyata keçirilən konstruktiv fəaliyyəti kimi qəbul edilir" [5, s. 404].

Koqnitiv dilçilikdə dil insanın koqnitiv fəaliyyətinin növlərindən biri, insanın dil vahidlərində olan məlumatları kodlaşdırdığı və dekodlaşdırdı koqnisiya vasitəsi hesab olunur. Dildə təfəkkür strukturları öz-özlüyündə mövcud deyil, özünəməxsus forması olan işarələr şəklində maddiləşir. Dilin bu ikitərəfliliyi onu insanın koqnitiv fəaliyyətinin digər növlərindən fərqləndirir. Dil informasiyanın ifadə olunduğu və işləndiyi işarələr sistemi olduğundan onun öyrənilməsi semiotik və koqnitiv yanaşmaların qarşılıqlı əlaqəsinə diqqət yetirməyi tələb edir. Koqnitiv dilçilikdə nitq fəaliyyəti şüurun daxili koqnitiv strukturlarının (koqnitiv modellər, mental reprezentasiyalar və s.) manipulyasiya etmək kimi qəbul edilir.

Müasir elmin və elmi fəaliyyətin indiki inkişaf mərhələsinin əsas xüsusiyyətləri, bir tərəfdən, onun texnolojiləşdirilməsi prosesinin intensiv davam etməsi, müxtəlif təcrübə yönümlü tətbiqlərin genişlənməsi, digər tərəfdən, insanın təbiətini dərk etmək üçün səylərin artması ilə səciyyəvidir. XX əsrin dilçiliyi onun cildini əhəmiyyətli dərəcədə dəyişdirən bir sıra "dönüşlərə" məruz qalmışdır. Ənənəvi məsələlərə antroposentrik bucaq altından yanaşma, öz növbəsində, həm bir sıra yeni problemlər ortaya çıxarmış, həm də linqvistik biliyinin strukturunda blokların düzülüşünə təsir etmişdir. Beləliklə, qnoseoloji məsələlər periferik mövqedən ön plana keçdi, onların dərk edilməsi və inkişafı prinsipcə yeni əsaslarla həyata keçirilməsinə başlanıldı. Sonuncular, fikrimizcə, əsl "koqnitiv inqilabı" və ya "koqnitiv dönüşü"nə səbəb olan üç əsas amilin nəticəsi kimi formalaşmışdır. Dilçilik sahəsində bu, onun inkişafının qeyri-klassik formasına keçidi şərtləndirən qnoseologiyanın antropolojiləşdirilməsidir və bu ayrı-ayrı elm sahələrində, o cümlədən dilçilikdə inqilabi dəyişikliklər kimi şərh edilə bilər. Nəticədə elmin siması, onun obyekti və subyekti, onun praktika ilə əlaqəsi əhəmiyyətli dərəcədə dəyişdi, biliyin obyekti və subyekti arasındakı əlaqə onların bir-birinə nüfuz etməsinə, koqnitiv prosesin subyektivləşməsinə və relyativləşməsinə doğru dəyişdi ki, bu da öz növbəsində həqiqətin dərk edilməsi və vasitələrinə təsir göstərməyə bilməzdi. Cəmiyyətin inkişafının əsası kimi biliyin, xüsusən də elmi biliyin rolunun görünməmiş şəkildə artması ilə ictimai həyatın bütün sahələrinin informasiyalaşdırılması ilə bağlı kapitalın maddi formasından onun yeni formasına - biliyə (informasiyaya) keçid istiqamətində cəmiyyətdə baş verən keyfiyyət dəyişikliklərini qeyd etməmək olmaz.

Koqnitiv elmin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, o, insanın koqnitiv və əqli fəaliyyəti ilə bağlı problemlərin son dərəcə geniş spektrini əhatə edir, intellektual qabiliyyətlərin təbiəti, mahiyyəti, fəaliyyəti və inkişafını öyrənməkdə maraqlı olan müxtəlif elm sahələrini birləşdirir. Bu fənlər arasına həm birbaşa əlaqəli olanlar, həm də ənənəvi olaraq əlaqəli hesab edilməyənlər və yalnız antroposentrik paradiqm şərçivəsində yaxınlaşma meylləri müşahidə olunan elmlər də daxildir. Koqnitologiya olduqca mürəkkəb daxili əlaqələrlə səciyyələnən kompleks bir hadisədir. Koqnitiv elmini fərqləndirən metodlar və vəzifələrin müxtəlifliyi onu deməyə əsas verir ki, onun vahid bir fenomen kimi dərk edilməsi yalnız metanəzəri, fəlsəfi-metodoloji təhlil səviyyəsində mümkündür.

DOI:10.30546/gdu.5.2025

Keçən əsrin sonları fizika, riyaziyyat, kibernetika, informatika, biologiya və s. kimi dəqiq elmlər sahəsində çoxsaylı araşdırmalara, nəzəri və təcrübi nəticələrə səbəb olan informasiya nəzəriyyəsinin sürətli inkişafı ilə səciyyələnir və informasiyanın əldə edilməsi, işlənib hazırlanması və saxlanmasını öyrənən bir sıra fənlərin inkişafına səbəb olmuşdur. Bu fənlərdən biri də müasir koqnitiv dilçiliyin tərkib hissələrindən birinə çevrilmiş, dil vahidlərin strukturu və məzmununu təsvir etmək və izah etmək üçün köhnə ənənəvi kateqoriyalara yenidən nəzərdən keçirərərk, idrak, qavrayış, təfəkkür, müşahidə, təxəyyül, psixi prosesləri və digər prosesləri ön plana çıxaran koqnitiv elm və ya koqnitologiya idi.

Koqnitiv psixologiya koqnitiv dilçiliyin formalaşması üçün ən mühüm mənbələrdən birinə çevrilmişdir. Dilin fəaliyyəti həqiqətən psixoloji mexanizmlərə əsaslanır, çünki dil insanın dünya və ya biliklə qarşılıqlı əlaqəsinin kateqoriyalara bölünmüş təcrübəsinin toplanması və qorunmasında ən mühüm həlqədir və hər hansı bir təcrübənin əsasını qavrayış və yaddaş təşkil etdiyindən, dil və idrakın psixologiya çərçivəsində öyrənilən perseptiv xüsusiyyətlərini nəzərə almadan öyrənilməsi qeyri-mümkündür. .

Deməli, koqnitiv psixologiyanın təsiri dilin tədqiqində elmi paradiqmlərin dəyişməsinə gətirib çıxarmış ki, bu da koqnitiv dilçilik çərçivəsində düşüncə proseslərinin əks olunması və ifadə formasına çevrilmişdir. Beləliklə, ötən əsrin sonlarında dilə insanın idrak fəaliyyətində iştirakı nöqteyi-nəzərindən, təkcə şüur və düşüncə proseslərinə ən təbii çıxışı təmin edən bir vasitə kimi deyil, həm də şüurun strukturları haqqında bildiyimiz və onları istənilən təbii dildə təsvir etməyə imkan verən mental proseslərin verbal ifadə vasitəsi kimi baxmağa ehtiyac yaranmışdır.

İdrak və bilik problemlərinə marağın gücləndirilməsi və diqqətin artırılmasında, onun başa düşülməsinə yanaşmaların yenilənməsində xüsusi rol təkamül qnoseologiyasına - fənlərarası istiqamətə aiddir, onun daxilində insanın koqnitiv qabiliyyətlərinin ümumi xüsusiyyətləri - qavrayış, təfəkkür, şüur, yaddaş yeni mövqedən öyrənilir. Bu epistemologiya koqnitiv elmdə, informasiya texnologiyalarında effektivliyini sübut edən müasir təkamül və koqnitiv konsepsiyalarının sintezinə yönəlmişdir. Bu kontekstdə insanın idrakı, Ç.P.Merkulovun da yazdığı kimi, "ətraf mühitə və insanların daxili koqnitiv vəziyyətlərinə informasiya nəzarətinin spesifik forması kimi çıxış edir. Bu nəzarətin effektivliyi bəşəriyyətin koqnitiv və sosial-mədəni təkamülü zamanı inkişaf edən koqnitiv qabiliyyətləri ilə təmin edilir" [6, s.8].

XX əsrin ortalarında elmi metodologiyada yeni bir istiqamət – koqnitologiya intensiv inkişaf mərhələsinə qədəm qoymuşdur. Bilik, idrak, informasiya, insan şüuru və təfəkkürü və müvafiq sistemlərin daşıyıcısı kimi insan beyni onun diqqət mərkəzində yer alır. E.S. Kubryakovanın fikrincə, koqnitologiya "bilik və idrak, insanların dünyanı qavrayışının nəticələri və məlumatların düşünülmüş və sistemləşdirilmiş tərzdə toplanması, şüurumuzda müəyyən şəkildə reprezentasiya olunmuş, mental və ya koqnitiv proseslərin əsasını təşkil edən predmet-idrak fəaliyyəti haqqında elmdir" [7, s. 34].

Koqnisiya koqnitiv dilçiliyin əsas anlayışıdır, o, bilik və təfəkkürün dildə təcəssümünü əhatə edir və buna görə də kqonisiya və koqnitivizmin koqnitivistika ilə sıx bağlıdır. İnsan haqqında bütün elmlərin kompleksində, ilk növbədə, dil və insan fəaliyyətinin digər növləri arasındakı münasibətlərin qarşılaşması artıq bir aksioma çevrilmişdir. Dil, mədəniyyət və cəmiyyətlə müqayisədə koqnitivistlərə insanın davranışını anlamaq üçün geniş imkanlar yaradır [8, s.9].

Koqnitiv dilçilik aşağıdakı sualları qoyur və cavab verməyə çalışır: a) bilik şüurumuzda necə reprezentasiya olunur?; b) məlumatlar sistemi hansı vahidlərdən ibarətdir?; c) təfəkkür prosesində insan hansı vahidlərlə əməliyyat aparır?

DOI:10.30546/gdu.5.2025

Müasir elmi paradiqmdə insanın koqnitiv fəaliyyətinin problemləri, insan beynində baş verən proseslər və bu proseslərin nəticəsi kimi biliklər fərqli aspektlərdən işıqlandırılır. Elmi biliyin inkişafındakı köklü dəyişikliklər koqnitiv inqilabı adlanır. Bununla bağlı N. Xomski yazır ki, "koqnitiv inqilab ağıl/beyin vəziyyətlərinə və onların insan davranışını necə şərtləndirdiyinə, xüsusən də koqnitiv vəziyyətlərə: bilik, anlama, şərh vəziyyətlərinə və s. aiddir" [9, s.37].

Dil və insanın mental təşkilinin sarsılmaz vəhdətini qəbul edən koqnitiv dilçilik N.Xomskinin "dil strukturunun xüsusi tədqiqi insan dərrakəsini başa düşməyə yardım edə bilər" [10, s.6] ideyasını metodoloji prinsipə çevirmiş oldu. Bi, əslində, dil və psixologiyanın ittifaqının, yəni dil hadisələrinin insanın koqnitiv qabiliyyətini işıqlandırmaq imkanlarının etirafıdır.

Koqnitiv dilçilik koqnitiv elmi ilə eyni suallara cavab verən bir elmi sahə kimi yaranmış, lakin o, həmin suallara dillə bilavasitə əlaqədə nəzərdən keçirir. Eyni zamanda, koqnitiv dilçilik təcrid olunmuş dil formaların tədqiqinə əsaslanmır, onları insanın dünyaya empirik baxışını, onun dildə konseptuallaşma yollarını, bütün idrak təcrübəsini və ətraf mühitə təsirləri özündə cəmləşdirən kateqoriyalar və məlumatların işlənməsi mexanizmlərini necə əks etdirməsi mövqeyindən baxır.

Koqnitivizmə görə, insan işlənib hazırlanması sistemi kimi, insanın davranışı isə onun daxili vəziyyətinin terminləri ilə izah və şərh olunur. Problemin həlli bilavasitə dilin istifadəsi ilə bağlı olduğundan, dilin koqnitivistlərin diqqət mərkəzinə düşməsi tam təbiidir [11, s.17-33]. Koqnitologiyada əsas diqqət insan koqnisiyasına yönəlib, təkcə müşahidə edilə bilən hərəkətləri deyil, onların zehni təsvirlərini, simvollarını və biliyə əsaslanan hərəkətləri yaradan insan strategiyalarını öyrənir. İnsanın idrak aləmi onun hər hansı insan fəaliyyətinin nitq-təfəkkür əsasını təşkil edən dilin fəal iştirakı ilə baş verən davranış və fəaliyyəti ilə öyrənilir. Beləliklə, koqnitivizmin ən mühüm prinsiplərindən biri insanın zehni fəaliyyətində müəyyən sxemlər, proqramlar və planlar əsasında rəhbər tutaraq, məlumatı aktiv şəkildə qavrayan və işləyib hazırlayan kimi şərh edilməsidir. Koqnitiv elmin özü isə insan beynindəki psixi prosesləri idarə edən ümumi prinsiplər haqqında elm kimi baxılmağa başladı.

İnsan təcrübəsinin kateqoriyalaşmasıı insanın koqnitiv fəaliyyəti ilə bağlıdır, çünki insanın idrak fəaliyyəti zamanı əldə edilən informasiyalar dil formalarında ifadəsini tapır. Ümumilikdə dil şüuru və sözün mənası onun fraqmenti kimi insanların sosial təcrübəsi, dünya haqqında biliklər, ifadə formasının strukturlaşması və qeydə alınması və fərdi şüurda biliyin faktiki saxlanması formasıdır. Koqnitiv prosesləri dil ilə əlaqəlidir və "dildə maddiləşmiş" proseslər formasını alır [12]. Beləliklə, koqnitiv dilçilik müasir antroposentrik paradiqm çərçivəsində koqnitivizm əsasında yaranır, linqvistik tədqiqatların üfüqlərini əhəmiyyətli dərəcədə genişləndirir. XX əsrdə dilə onun insanın koqnitiv fəaliyyətində iştirakı baxımndan baxmaq zərurəti yaranmışdır. Subyekt-idrak fəaliyyəti zamanı əldə edilən informasiyanı insana müxtəlif kanallarla qəbul edir, lakin koqnitiv dilçilikdə tədqiqat predmeti onun yalnız dil formalarında əks olunan və qeydə alınan hissəsidir.

Təfəkkür fəaliyyətinin bir çox nəticələrinin verbal şəkildə ifadə edildiyi üçün deyil, "biz şüurun strukturları haqqında yalnız bu strukturlar haqqında ünsiyyət qurmağa və onları istənilən təbii dildə təsvir etməyə imkan verən dil sayəsində bilirik" (13, s.21), yəni şüur və təfəkkür proseslərinə ən təbii çıxışı təmin edən dildir.

Koqnitiv dilçiliyin qarşısında aşağıdakı vəzifələri dayanır:

1) biliyin konseptuallaşdırılması və kateqoriyalaşdırılması proseslərinin tədqiqi, mədəniyyət konstantlarının ifadə vasitələri və üsullarının təsviri;

2) xalqların konseptsferlərini təşkil edən universal konseptlər sisteminin təsviri;

DOI:10.30546/gdu.5.2025

3) bütün konseptual sistemin yaradılması üçün ən vacib, müəyyən bir xalqın konseptual fəzasını təşkil edən konseptlərin müəyyənləşdirilməsi və təsviri.

Dünya və insan haqqında biliklər, dil bilgisi və dil haqqında biliklər, reallığın konseptuallaşması prosesləri, dünyanın və onun fraqmentlərinin konseptual mənzərəsinin formalaşma mexanizmləri, habelə onların dildə obyektivləşdirilməsi müasir koqnitiv dilçiliyin nəzərdən keçirdiyi əsas sahələrdən biridir.

Elmi ədəbiyyatın və koqnitiv aspektdə aparılan tədqiqatların təhlili belə qənaətə gəlməyə imkan verir ki, indiki inkişaf mərhələsində koqnitiv dilçiliyin qarşısında üç problem durur: a) dil biliklərinin təbiəti; b) dil biliklərinin mənimsənməsi; c) dil biliklərindən necə istifadə olunması.

Buna görə də tədqiqatlar, V. A. Maslovanın yazdığı kimi, əsasən aşağıdakı istiqamətlərdə aparılır: 1) dil işarələrində təqdim olunan biliyin növləri və tipləri və bu işarələrdən biliyin çıxarılması mexanizmi, yəni şərh qaydaları; 2) dil işarələrinin yaranması və inkişafı şərtləri və onların fəaliyyətini tənzimləyən qanunlar; 3) dil işarələri və onlarda əks olunan mədəni reallıqlar arasındakı əlaqə [14, s. 26]. Beləliklə, koqnitiv dilçiliyin mərkəzi problemini "dərrakə – dil – reprezentasiya – konseptuallaşma – kateqoriyalaşma – qavrayış" koqnitiv zəncirdə asılılıqlar və münasibətlərin təyin edilməsi ilə bağlı sualların ardıcıllığı kimi təqdim etmək olar.

Koqnitiv elm aşağıdakı fundamental fikrə əsaslanır: təfəkkür freymlər, ssenarilər, modellər və digər bilik strukturları kimi daxili (mental) təsvirlərin manipulyasiyaları təmsil edir. Deməli, biz strukturlaşmış biliklərin qlobal kvantları kimi konseptlərlə düşünürük.

Bu fakt dilçiliyin özünə də təsirsiz ötüşməmişdir: dilçilikdə dəyər yönümlərində dəyişiklik baş vermi və beləliklə, insanın təfəkkür prosesləri və sosial əhəmiyyətli hərəkətlərini öyrənmək istəyi yaranmışdır. İnformasiyanın alınması, işlənib hazırlanması və saxlanması prosesləri linqvistik tədqiqatların mərkəzində dayanır. Bundan əlavə, insan yeni informasiyanı aldıqda onu artıq şüurunda olanlarla əlaqələndirir və bununla da yeni mənalar yaradır. Koqnitiv dilçilikdə əməliyyat vasitəsi yaddaşın əməliyyat vahidləri – freymlər, konseptlər, geştaltlar və s-dir. Beləliklə, koqnitiv dilçilik dünyanın mənzərəsini modelləşdirməyə, dil şüurunun strukturunu modelləşdirməyə yönəlmişdir. Təfəkkür problemlərinin həlli bilavasitə dilin istifadəsi ilə bağlıdır, çünki dil semiotik baxımdan kommunikativ sistemlərin ən güclüsüdür. O, nəinki məlumat və biliklərin ötürülməsi və qəbuluna vasitəçilik edir, həm də insanın xaricdən aldığı məlumatları işləyib hazırlayır, yəni xüsusi dil freymləri yaradır. Beləliklə, dil dünyanın dil mənzərəsini yaratmaq üçün yaddaşdakı biliklərin təşkili və sistemləşdirilməsi üçün imkanlar yaradır.

Koqnitiv elm təfəkkür fəaliyyətinin prosesləri və nəticələrini onların həyata keçirilməsinin bilavasitə reallığında müəyyən etmək vəzifəsini öz üzərinə götürür. Onun vəzifəsi şüurda dünyanın kateqoriyalaşmasını təyin etmək, realı koqnisiya və qiymətləndirmə proseslərini və onların dünya və insan fəaliyyəti ilə münasibətlərində yaranan şüurun konseptual strukturlarını təsvir etməkdir. Koqnitiv dilçiliyi "dilin ümumi koqnitiv mexanizmi kimi mərkəzində yer aldığı istiqamət" kimi müəyyən etmək olar [11, s.21]. Əsas müddəa dil və koqnisiya arasında qırılmaz əlaqədir [7, s.35]. Diqqət mərkəzinə dilin insanın ətraf dünya haqqında biliklərinin mənimsənməsi, işlənməsi, təşkili, saxlanması və istifadəsi ilə əlaqəli olan struktur və işlənmə aspektləri düçür. Deməli, təfəkkür və beyin haqqında ən müxtəlif məlumatların fəal iştirakı ilə ifadə olunan koqnitiv dilçiliyin fənlərarası olması labüddür. Müəyyən dil faktlarının koqnitiv dilçilik baxımından izahı və təsviri digər elmlərin empirik məlumatları ilə uyğunlaşdırılmalıdır.

**İşin elmi nəticəsi:** Koqnitologiya koqnitivistikanın tərkib hissəsi kimi ayrı-ayrı elm sahələrinin inteqrasiyasının nəticəsidir, amma onlardan metodu, predmeti və s. fərqlənir.

DOI:10.30546/gdu.5.2025

Məsələ eyni obyektə malik müxtəlif bilik sahələrinin ümumiləşdirilməsindən deyil, konkret koqnitiv elmlərə münasibətdə metaelm kimi çıxış edən yeni elm sahəsinin yaranmasına səbəb olan keyfiyyətcə yeni sintezdən gedir. Koqnitiv elm üç səviyyəli struktur kimi təqdim oluna bilər: konkret koqnitiv elmlər, kqonitologiya (metaelm) və fəlsəfi epistemologiya. Koqnitiv elm konkret koqnitiv elmlər ilə fəlsəfə və dilçilik arasındakı əlaqəyə vasitəçilik edir. Mənbəyi psixologiya elmi ilə sıx bağlı olan koqnitologiya ilkin olaraq fəaliyyətin koqnitiv aspektlərini, ətraf gerçəkliyin qavranılması, dərk edilməsi və başa düşülməsi problemlərini öyrənən elm sahəsi kimi yaranmışdır.

**İşin elmi yeniliyi:** Məqalədə "koqnitologiya" anlayışı konkret mənbələr üzrə tədqiq edilmiş və ümumilikdə mənbələrdəki ayrı-ayrı fikirlər ümumiləşdirilmişdir.

**İşin tətbiqi əhəmiyyəti:** Məqalənin nəticələrindən dil və mədəniyyətin əlaqəsi, koqnitiv tədqiqatları üzrə aparılacaq məqalə və tezisləri üçün yardımçı mənbə kimi çıxış edə bilər.

***Ədəbiyyat***

1. Краткий словарь когнитивных терминов / Е.С. Кубрякова, В.З. Демьянков, Ю. Г. Панкрац, Л. Г. Лузина; Под общ. ред. Е. С. Кубряковой. - Москва : Филол. фак. МГУ, 1996. - 245 с.
2. Gleitman L., Liberman M. The cognitive science of language: Introduction // An invitation to cognitive science. – Cambridge (Mass). 1995. – Vol. 1: Language. – P. 32-45; Heine B. Cognitive foundations of grammar. – Oxford, 1997. – 325 p.
3. Лакофф Дж. Мышление в зеркале классификаторов // Новое в зарубежной лингвистике. - М., 1988. - Вып. 23: Когнитивные процессы. - С. 118-143; Лакофф Дж., Джонсон М. Метафоры, которыми мы живем // Язык и моделирование социального взаимодействия. - М., 1987. - С. 113-128; Филлмор Ч. Фреймы и семантика понимания // Новое в зарубежной лингвистике. - М., 1988. - Вып. 23: Когнитивные процессы. - с. 80-118; Херадствейт Д., Нарвесен У. Психологические ограничения на принятие решений // Язык и моделирование социального взаимодействия. - Москва, 1987. - с. 69-81; Шпербер Д., Уилсон Д. Релевантность // Новое в зарубежной лингвистике. - Москва, 1988. - Вып.23: Когнитивные процессы. - с. 119 -140; Олкер Х.Р. Волшебные сказки, трагедии и способы изложения мировой истории // Язык и моделирование социального взаимодействия. - Москва, 1987. - с.146-155.
4. Баранов А.Н., Добровольский Д.О. Постулаты когнитивной семантики // Известия РАН. Сер. лит. и яз. - М., 1997. - № 1. - с. 8-17; 36. Михальчук И.П. Концептуальные модели в семантической реконструкции: (Индоевропейское понятие "закон") // Известия РАН. Сер. лит. и яз. - Москва, 1997. - № 4. - с. 27-39; Берестнев Г.И. О "новой реальности" языкознания // Науч. докл. высш. шк. Филол. науки. - Москва, -1997. - № 4. - с. 25- 133; Почепцов О.Г. Языковая ментальность: способ представления мира // Вопросы языкознания. - Москва, 1990. - №6. - с. 28- 37; Seiler H. A functional view on prototypes // Conceptualization and mental processing in Language. Berlin, 1993. – P. 27- 45
5. Лингвистика на исходе XX века: Итоги и перспективы: Тезисы международной конференции: В 2-х т. - Москва, 1995. -536 с.
6. Меркулов, И. П. Когнитивные способности / И. П. Меркулов ; Рос. акад. наук, Ин-т философии, Гос. ун-т гуманитарных наук. - Москва : Ин-т философии РАН, 2005. 179 с.
7. Кубрякова Е.С. Начальные этапы становления когнитивизма: лингвистика - психология - когнитивная наука // Вопросы языкознания. 1994. № 4. С. 34.
8. Маслова В.А. Когнитивная лингвистика: учеб. пособие / В.А. Маслова. – 2-е изд. – Мн.: ТетраСистемс, 2005. – 256 с.

DOI:10.30546/gdu.5.2025

9. Хомский Н. Язык и мышление. Язык и проблемы знания. – Благовещенск: БГК Им. И. А. Бодуэна Де Куртенэ, 1999, -252 с.
10.Хомский Н. Язык и мышление / Пер. с англ. Б.Ю. Городецкого; Под ред. В.В. Раскина, С предисл. В.А. Звегинцева, Моск. гос. ун-т им. М.В. Ломоносова. Филол. фак. Публикации Отд-ния структурной и прикл. лингвистики. Под общ. ред. В.А. Звегинцева. — Москва : Изд-во Моск. ун-та, 1972. — 122 с.
11.Демьянков В.З. Когнитивная лингвистика как разновидность интерпретирующего подхода // Вопросы языкознания, 1994. – №4. – с.17-33.
12.Кубрякова Е.С. Язык и знание: На пути получения знаний о языке: Части речи с когнитивной точки зрения. Роль языка в познании мира / Рос. Академия наук. Ин-т языкознания. – М.: Языки славянской культуры, 2004. – 560 с.
13.Кубрякова Е.С. Части речи с когнитивной точки зрения. - Москва, 1997 – 331 с.
14.Маслова В. А. Когнитивная лингвистика: учебное пособие. – Минск: ТетраСистемс, 2014. – 256 с.

## COGNITOLOGY AS A SCIENCE THAT STUDIES THE UNDERSTANDING OF THE RESULTS OF HUMAN COGNITIVE ACTIVITY

***Yusifova Tunzala Vali***

***Summary***

The article deals with the principles of the formation of cognitology as an independent scientific field, and its formation as an independent methodological base. The article analyzes the reasons and main theoretical sources that conditioned the emergence of cognitology for this purpose. The article analyzes the structure of cognitivism, a new field of cognitively oriented interdisciplinary research that is intensively developing in the context of qualitative changes in linguistics and other sciences. The article considers cognitology to be a paradigmatic model for the integration of cognitive sciences and the study of the organization of knowledge about the cognitive process and cognitive experiences. The author also describes the main paradigmatic features of cognitive science. The article presents cognitology as a science about knowledge and cognition, the results of people’s perception of the world and the deliberate and systematized collection of information, the subject-cognitive activity that is represented in consciousness in a certain way and forms the basis of mental or cognitive processes.

## КОГНИТОЛОГИЯ КАК НАУКА, ИЗУЧАЮЩАЯ ВОСПРИЯТИЕ РЕЗУЛЬТАТОВ КОГНИТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ ЧЕЛОВЕКА

***Юсифова Тунзала Вели кызы***

***Резюме***

В статье анализируются принципы формирования когнитологии как самостоятельного научного направления и как самостоятельной методологической базы. С этой целью в статье анализируются причины и основные теоретические источники, приведшие к возникновению когнитологии. В данной статье рассматриватеся структура когнитивистики – новой области когнитивноориентированных междисциплинарных исследований, интенсивно развивающихся в контексте качественных изменений в области лингвистики и других наук. В статье выделяется когнитология как парадигмальная модель интеграции когнитивных наук и организации знания о процессе познания и когнитититивных практиках. Автором также дано описание основных парадигмальных признаков когнитивной науки. В статье рассматривается когнитология как наука о знании и познании, представляющая собой результаты восприятия людьми окружающего мира, а также целенаправленный и систематический сбор информации, представленной в сознании определенным образом, и субъектно-познавательную деятельность, составляющую основу психических или когнитивных процессов.

***Rəyçi: filol.f.d., dos.Cəmil Babayev***
***Daxil olma tarixi 10 iyul 2025-ci il***